# Sülhə Lider imzası: Zirvəyə aparan salnamə

## Prezident İlham Əliyev həm müharibədə, həm də diplomatiyada qalib kimi Cənubi Qafqazın yeni siyasi xəttini müəyyən etdi

**(əvvəli 1-ci səhifədə)**

"Biz nəyi nə vaxt edəcəyimizi yaxşı bilirik. Ona görə də bu gün bizim uğurlu əməliyyatımız böyük nəticələrə gətirib çıxardı. Nəyi necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm. Azərbaycan xalqı mənə inanır. Mən də bu inama arxalanaraq bütün lazımi tədbirləri görürəm…". Bu fikirlər Prezident İlham Əliyevin qətiyyətli və strateji liderliyini açıq şəkildə göstərir. Ölkə başçımız yalnız operativ qərarvermə qabiliyyətini nümayiş etdirmir, eyni zamanda xalqın ona olan etimadını idarəçilik və planlaşdırma üçün əsas dayağa çevirir. Digər tərəfdən, Azərbaycanın beynəlxalq nüfuzunun artmasında Prezident İlham Əliyevin qlobal təşəbbüsləri və ardıcıl islahatları həlledici amillərdir. Dövlət başçısı geosiyasi və geoiqtisadi tendensiyaları düzgün qiymətləndirərək ölkəni regional aktordan beynəlxalq enerji təhlükəsizliyində açar mövqeyə malik strateji tərəfdaşa çevirib. Azərbaycan Avropanın enerji xəritəsini yenidən tərtib edən transmilli layihələrə imza atıb, etibarlı tərəfdaş imicini möhkəmləndirib. Bu gün Azərbaycan Avropa İttifaqından Mərkəzi Asiyaya, Türk Dövlətləri Təşkilatından Qoşulmama Hərəkatına qədər geniş siyasi coğrafiyada nüfuz sahibi olaraq qəbul edilir. Bütün bunlar göstərir ki, cənab İlham Əliyevin liderlik modeli milli maraqların qorunmasına, qlobal proseslərdə aktiv mövqeyə əsaslanır. Bu isə reallıqları siyasi analizlə qiymətləndirən, riskləri düzgün hesablamağı bacaran, uzunmüddətli strateji hədəfləri mərhələli şəkildə reallaşdıran idarəçilik konsepsiyasına dayanır. Prezident İlham Əliyev hər zaman dövlətin və xalqın maraqlarını prinsipial şəkildə müdafiə edib. İkinci Qarabağ müharibəsi dövründə dövlət başçısı dəfələrlə vurğuladı ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək və heç bir güzəştə getməyəcək. Bu sözlər həm də hərbi və diplomatik əməliyyatlarda konkret nəticələrlə təsdiqləndi. Faktlar da cənab İlham Əliyevin qətiyyətini sübut edir: 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun uğurlu əməliyyatları, strateji mövqelərin alınması və nəticədə ərazi bütövlüyünün bərpası onun dəqiq planlaşdırma və qərarvermə qabiliyyətinin göstəricisi idi. Eyni zamanda, ölkə başçımız diplomatiya sahəsində də prinsipial mövqeyini qoruyur. Prezident İlham Əliyevin qətiyyəti həm də dövlətin idarəçilik modelinə təsir edir, müharibədə qalib gəlməklə yanaşı, postmüharibə dövründə də regionda dayanıqlı sülhün təmin olunması üçün bütün diplomatik və iqtisadi mexanizmləri işə salıb.

İkinci Qarabağ müharibəsində Azərbaycanın qəti qələbəsi ilə üç onillik boyu bölgəyə qandallanan status-kvo zəncirləri qırıldı, yeni siyasi reallıqlar formalaşdı. Bu reallıqların idarə edilməsi, sabitlik və sülhün bərqərar olması istiqamətində strateji kursu müəyyənləşdirən Prezident İlham Əliyevdir. Dövlət başçısının liderlik missiyalarından biri məhz bu yeni mərhələdə diplomatik, iqtisadi və sosial prosesləri koordinasiya edərək dayanıqlı sülh mühitinin formalaşmasına nail olmaqdır.

İkinci Qarabağ müharibəsindən ötən beş ilə yaxın müddətdə İlham Əliyev bütün təşəbbüsləri regionun gələcək sabitliyinə yönəldib. Azərbaycanın hərbi üstünlüyü və beynəlxalq hüquqa söykənən mövqeyi ilə yanaşı, məğlub tərəf Ermənistanın da gələcək inkişaf imkanlarını nəzərə alan xoşməramlı təkliflər irəli sürülür. Bu təkliflər həm ikitərəfli münasibətlərin normallaşdırılmasını, həm də bölgədə iqtisadi inteqrasiyanın sürətlənməsini hədəfləyir. Dövlət başçımızın "Əgər Ermənistan bölgədə sülhün bərqərar olmasını istəyirsə, bu, baş verəcək" sözləri reallıqda Azərbaycanın prosesin nəticələrinə təsir gücünü göstərir. Regionda sülhün təmin olunması həm Azərbaycan, həm də Ermənistan üçün siyasi sabitlik, iqtisadi dirçəliş və sosial rifah perspektivlərini açır. Bu, eyni zamanda Cənubi Qafqazı qlobal iqtisadi və nəqliyyat layihələrinin kəsişmə nöqtəsinə çevirə bilər. Beynəlxalq birlik regionda təsir maraqları olan güc mərkəzləri də təhlükəsiz və proqnozlaşdırıla bilən Cənubi Qafqaz mühitini dəstəkləyir. Bu kontekstdə Prezident İlham Əliyevin sülh strategiyası yalnız regional təhlükəsizlik deyil, həm də beynəlxalq əməkdaşlıq üçün yeni imkanlar yaradır. Ölkə başçımız öz çıxışlarında dəfələrlə bildirib ki, heç bir halda sülhün alternativi yoxdur və ola bilməz.

Avqustun 8-də Ağ Evdə ABŞ-ın təşəbbüsü və vasitəçiliyi ilə Azərbaycan Prezidenti və Ermənistan baş naziri Birgə Bəyannamə imzaladılar. Bu hadisə Cənubi Qafqazda sülhə gedən yolda tarixi dönüş nöqtəsi olmaqla yanaşı, regionun yeni inkişaf mərhələsinə Azərbaycanın strateji liderliyi ilə qədəm qoyduğunu təsdiqlədi. Vaşinqton görüşü iki xalq arasında qarşılıqlı anlaşma, əməkdaşlıq, təhlükəsizlik və rifahın təmin olunması üçün möhkəm təməl yaratdı. Qalib tərəf olaraq Azərbaycan sülh və əməkdaşlığın tərəfdarı, etimadın möhkəmləndirilməsi, siyasi-iqtisadi əlaqələrin inkişafı, ticarət və nəqliyyat-kommunikasiya xətlərinin bərpası istiqamətində lider mövqeyini nümayiş etdirdi. Prezident İlham Əliyevin diplomatik iradəsi regionun mürəkkəb geosiyasi reallıqlarını uğurla idarə edərək sülh prosesinə yeni dinamika qazandırdı. Birgə Bəyannamə postmüharibə dövründə Cənubi Qafqazın mürəkkəb geosiyasi reallıqları fonunda sülhə aparan konkret yol xəritəsini ehtiva edir və regionun sabit, çiçəklənən gələcəyi üçün Azərbaycanın liderliyini simvollaşdırır. Bu uğur illərlə davam edən münaqişədən sonra döyüş meydanında qazanılmış Zəfərin diplomatik platformada davamı, uzaqgörən siyasət və sarsılmaz liderliyin nəticəsidir. Sülhü qorumaq bəzən qələbə qazanmaqdan daha çətindir. Lakin ölkə başçısı İlham Əliyevin strateji iradəsi, qətiyyətli diplomatik siyasəti və beynəlxalq aləmdə nüfuzlu mövqeyi beynəlxalq güclərin təzyiqlərini neytrallaşdıraraq sülh prosesini irəli apardı. Qələbədən diplomatik masaya keçid beynəlxalq aləmdə Azərbaycanın mövqeyini möhkəmləndirdi və yeni reallığı qəbul etdirdi. Vaşinqton görüşündən sonra müsahibəsində də dövlət başçısı bunu təsdiqlədi: "Yalnız 2023-cü ilin antiterror əməliyyatından sonra Ermənistan artıq reallıqlarla barışmalı oldu. Ondan sonra demək olar ki, fəal danışıqlar prosesi başlamışdır. Artıq neçə aydır tərəflər bəyan etmişdilər ki, sülh sazişinin bütün maddələri razılaşdırılıb. Hesab edirəm ki, bu, Cənubi Qafqaz üçün çox önəmli tarixi məsələdir. Əminəm ki, bu gün Ağ Evdə paraflanan sülh sazişi artıq bölgəyə sülh gətirib".

ATƏT-in Minsk qrupu və əlaqəli strukturların bağlanması barədə müraciət Vaşinqton görüşündə Birgə Bəyannamədə əksini tapdı və Minsk qrupunun səmərəsizliyi tarixi olaraq bitdi. Sülh sazişi çərçivəsində region üçün strateji əhəmiyyət daşıyan Zəngəzur dəhlizi açılır. Bu dəhliz Naxçıvanla Azərbaycanın əsas hissəsini birləşdirməklə yanaşı, həm də Çin və Mərkəzi Asiya ölkələrini Avropaya bağlayan mühüm tranzit marşrutu kimi çıxış edir. Dəhlizin reallaşması Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə əsas hissəsi arasında kommunikasiyaların açılmasını təmin edir və ABŞ-ın qarant rolunu təsdiqləyir. Yol avtomobil və dəmir yolu bağlantıları ilə yanaşı, enerji və telekommunikasiya xətlərinə geniş imkanlar yaradacaq, regionun enerji və nəqliyyat xəritəsini dəyişəcək, ticarət əlaqələrini sürətləndirəcək və Azərbaycanın tranzit imkanlarını artıraraq dünya iqtisadiyyatına inteqrasiyasını gücləndirəcək. Zəngəzur dəhlizi türk dövlətləri arasında əməkdaşlığı dərinləşdirir və Azərbaycan-Türkiyə münasibətlərini möhkəmləndirir. Dəhliz regionda güc balansını formalaşdırmaqla, mənfi xarici təsirləri zəiflədərək sülh və stabilliyin təmin olunmasına töhfə verir.

Vaşinqtona səfər, eyni zamanda Azərbaycan-ABŞ münasibətlərində yeni tarixi səhifə açılması baxımından da strateji əhəmiyyət daşıyır. Strateji tərəfdaşlıq məsələləri müzakirə edildi, Strateji İşçi Qrupunun yaradılması üzrə Anlaşma Memorandumu imzalandı. Bu, Azərbaycanın regiondakı lider mövqeyini ABŞ üçün strateji əhəmiyyətli olduğunu və Prezident İlham Əliyevin çoxşaxəli liderlik bacarığını bir daha nümayiş etdirdi. Gələcək əməkdaşlıq yalnız siyasi sahəni deyil, iqtisadi, ticarət, enerji, süni intellekt, rəqəmsal infrastruktur, hərbi və tranzit əlaqələri də əhatə edir. İlk addım olaraq SOCAR və "ExxonMobil" şirkəti arasında əməkdaşlıq memorandumu imzalandı ki, bu da həm ənənəvi, həm də qeyri-ənənəvi enerji sahələrində potensial əməkdaşlığı təmin edir. Eyni zamanda, 33 il qüvvədə olan "907-ci düzəliş"in ləğvi Azərbaycan-ABŞ münasibətlərində etimadı bərpa etdi. Dövlət başçısı Vaşinqtonda bildirdi ki, "907-ci düzəliş"in ləğv olunması, hesab edirəm ki, tarixi hadisədir: "Artıq strateji əməkdaşlıq formatına başlamağımız da hesab edirəm ki, tarixi hadisədir. Ona görə mən səfərin nəticələrindən çox məmnunam və əminəm ki, bu səfərin konkret nəticələri yaxın gələcəkdə özünü büruzə verəcək".

Bütün bu addımlar yaxın gələcəkdə Azərbaycan və Ermənistan arasında tarixi sülh müqaviləsinin imzalanmasına və Cənubi Qafqazın siyasi-iqtisadi strukturunun formalaşmasına zəmin yaradır. Bu yalnız münaqişənin bitməsi deyil, həm də haqq-ədalətin zəfəri, yeni əməkdaşlıq, inkişaf və sabitlik dövrünün başlanğıcıdır. Nəticədə Azərbaycan həm döyüşdə, həm də diplomatiyada strateji liderliyi ilə regionun gələcəyini formalaşdıran qüdrətli dövlət kimi qalibdir. Bütün bunlar isə dövlət başçısı İlham Əliyevin siyasi vizyonu, bütün stereotipləri qırması və gələcəyə pozitiv baxışı nəticəsində mümkün oldu. İkinci Qarabağ müharibəsindən sonra Prezident İlham Əliyevin əsas strateji hədəflərindən biri dayanıqlı sülhün təmin edilməsi idi. 2022-ci ilin əvvəlində Azərbaycanın Ermənistana təqdim etdiyi 5 əsas prinsip sülh müqaviləsinin bünövrəsini təşkil etdi. Bu prinsiplər beynəlxalq hüququn baza elementlərinə - dövlətlərin ərazi bütövlüyünə, sərhədlərinin toxunulmazlığına hörmət, qarşılıqlı tanınmasına və daxili işlərinə müdaxilə etməməsinə prinsipinə əsaslanırdı. Lakin Ermənistanın qeyri-səmimi mövqeyi, Bayden-Blinken administrasiyasının, eləcə də Fransa prezidenti Emmanuel Makronun qərəzli yanaşmaları prosesin irəliləməsinə mane olurdu. Bu vəziyyət yalnız lokal xarakterli antiterror tədbirlərindən sonra dəyişdi, Azərbaycan suverenliyini tam təmin etməklə yanaşı, danışıqların real məcraya keçməsinə şərait yaratdı. Bu mərhələdən sonra Ermənistan beynəlxalq vasitəçilərin təsiri altında, faktiki olaraq yeni regional reallığı qəbul etməyə məcbur oldu. Prezident İlham Əliyevin siyasi iradəsi, strateji baxışı və prinsipial mövqeyi sayəsində cari ilin mart ayında sülh müqaviləsi üzrə danışıqlar yekunlaşdı. Bu, müharibədə əldə olunmuş status-kvonun beynəlxalq səviyyədə təsbit edilməsi demək idi. ABŞ daxil olmaqla aparıcı dövlətlər Azərbaycanın yaratdığı yeni reallığı qəbul etdilər. Müharibədə Zəfər qazanmış Azərbaycan sülh prosesinin də qalibi oldu. Bu, həm regional təhlükəsizliyin möhkəmlənməsi, həm də ölkəmizin beynəlxalq nüfuzunun daha da artması deməkdir. Prezident İlham Əliyevin həm hərb meydanında, həm də diplomatik masada qazandığı qələbələr XXI əsrdə Azərbaycan dövlətçiliyinin möhkəm dayağına birinə çevrildi.

Azərbaycan Prezidentinin Vaşinqtona tarixi səfəri diplomatik uğur, beynəlxalq siyasi balansda dönüş nöqtəsi oldu. Bu səfər bir daha təsdiqlədi ki, regionun gələcəyi Bakıdan başlayır və strateji qərarlar Prezident İlham Əliyev tərəfindən verilir. Vaşinqton görüşlərində nümayiş etdirilən prinsipial mövqe və milli maraqların qətiyyətlə müdafiəsi beynəlxalq güclərə açıq və aydın mesajdır: Azərbaycanla yalnız bərabərhüquqlu əməkdaşlıq əsasında dialoq mümkündür. Artıq regionda oyun qaydaları dəyişib və qalib lider Prezident İlham Əliyev tərəfindən müəyyən edilir, dünən ultimatum dili ilə danışmağa çalışanlar bu gün sülh, təhlükəsizlik və sabitliyin Bakıdan keçdiyini qəbul edir. Prezident İlham Əliyevin mövqeyi regionda uzunmüddətli sülhün yeganə təminatçısı kimi dəyişməz və alternativsizdir. Azərbaycanın qlobal arenadakı geosiyasi nüfuzunun yüksəlməsində Prezident İlham Əliyevin konseptual və taktiki liderliyi mərkəzi rol oynayır. Dövlət başçısının qərarvermə mexanizmləri yalnız milli maraqların qorunmasını təmin etmir, həm də Azərbaycanın beynəlxalq legitimliyini artırır, ölkənin imicini strateji kommunikasiya vasitəsilə möhkəmləndirir.

Sülh prosesi kağız üzərində deyil, real siyasi müstəvidə formalaşır. Prezident İlham Əliyev regionda sabitlik və əməkdaşlıq mühiti yaradaraq yeni müharibələrin qarşısını alır. Bu, diplomatik uğur olmaqla yanaşı, minlərlə gəncimizin həyatının qorunması deməkdir. Regionu yeni toqquşmalara sürükləmək istəyən radikal dairələr və revanşist qüvvələr iflasa uğradı. Liderin qətiyyəti, dövlətin gücü, xalqın birliyi bu fitnəkar niyyətləri alt-üst etdi. Ölkə başçısı yalnız müharibədə qalib gəlmədi, həm də postmüharibə dövründə sülhü təmin edən lider kimi tarixdə iz qoydu.

Əldə olunan uğurlar sadəcə bu günün deyil, gələcəyin zəmanətidir. Prezidentin strateji iradəsi ilə Azərbaycan bölgədə etibarlı tərəfdaş, sülh və sabitlik adası kimi öz yerini daha da möhkəmləndirir. Bu, həm region ölkələrinin, həm də beynəlxalq ictimaiyyətin maraqlarına xidmət edir. Sülh prosesində liderlik edən İlham Əliyevin qələbəni sülhə çevirmək missiyası uğurla icra olunur. Azərbaycan diplomatiyasının son illərdə qazandığı ardıcıl uğurların əsasında Prezident İlham Əliyevin düzgün, prinsipial və milli maraqlara əsaslanan siyasəti dayanır. Vaşinqton səfəri bu uğurların növbəti zirvəsi oldu. Siyasi arenada qətiyyətli, diplomatik masada prinsipial və xalq qarşısında məsuliyyətli lider obrazı dünya üçün nümunəyə çevrildi. Regionda dəyişən reallıqlar fonunda Ermənistan üçün seçim aydındır: ya sülh, ya da tam təcrid. Bu dəfə qərarı Bakı diktə edir. Qalib Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan yalnız öz gələcəyini deyil, bütün regionun sabitlik modelini formalaşdırır - sülh, inkişaf və əməkdaşlıq üzərində qurulmuş əsl model.

**Ləman TƏHMƏZ,**
**"Respublika".**